**Azərbaycan Respublikası Vergilər Nazirliyinin**
**Tədris Mərkəzi**

# “Makroiqtisadi göstəricilər və onların təhlili”

**mövzusu üzrə**

## TƏLİM MATERİALI

**Dinləyicilər:** Müsabiqə yolu ilə vergi orqanlarına staj müddətinə işə qəbul edilən əməkdaşlar;

**Təhsilalma forması:** Əyani
**Tədris müddəti:** 2 saat
**Müəllif:** Qarayev İmran Əliyar oğlu, kafedra müdiri.

**Tədrisin məqsədi:** Milli hesablar sisteminin və ona daxil olan makroiqtisadi göstəricilərin əsas mahiyyəti və iqtisadi təhlil prosesində onların rolunun araşdırılması. Əsas makroiqtisadi göstəricilərin hesablanması.

**BAKI – 2018**

# Mündəricat

1. Milli Hesablar Sistemi və onun mahiyyəti.
2. Makroiqtisadi Göstəricilər.
3. ÜDM –un iqtisadi mahiyyəti
4. Ümumi daxili məhsul və onun hesablanması
5. Nəzarət sualları
6. Ədəbiyyat

## 1.Milli Hesablar Sistemi və onun mahiyyəti

Ölkə iqtisadiyyatının makro səviyyədə təhlili və onun inkişaf səıviyyəsinin digər ölkələrlə müqayisə edilməsi zərurəti beynəlxalq standartlara uyğun Milli Hesablar Sisteminin (MHS) yaranmasına səbəb olmuşdur. MHS makroiqtisadi prosesləri əks etdirən və hal-hazırda 150-dən çox ölkədə tətdiq edilən göstəricilər sistemidir. Müasir MHS və onun nəzəri əsasları Nobel mükafatı laureati Saymon Kuznes tərəfindən hazırlanmışdır.

***Milli Hesablar Sistemi – xüsusi balanslar kompleksinə əsaslanan konkret göstəricilər sistemidir. Bu göstəricilər vasitəsi ilə ölkənin iqtsadi inkişaf səviyyəsi, makroiqtisadi sabitlik , onun dinamik inkişaf meylləri təhlil olunur.***

MHS-in analitik imkanlara malik olması müasir dövrdə statistik təhlilin konseptual əsası kimi onun əhəmiyyətini daha da artırır. MHS-in quruluş elementlərunə aşağıdakılar aiddir:

- İqtisadi funksiyalar;
- iqtisadi agentlər – institusional vahidlər , təsərrüfat qərarı verən subyektlər;
- iqtisadi əməlliyyatların obyektləri – xidmətlər, mallar, pullar və s..
- ölkədə iqtisadi fəaliyyət göstərən rezidentlər və qeyri rezidentlər.

Milli Hesablar Sisteminin analitik imkanlarmı araşdırmaq və onun əsasısnda ölkənin sosial - iqtisadi inkişafını statistik təhlil etmək hal-hazırda elmi araşdırmalarda, iqtisadi siyasətin təhlili prosesində geniş şəkildə istifadə olunur.

***Milli Hesablar Sistemi - son məhsulun istehsalı , bölgüsü , təkrar bölgüsü və istifadə edilməsini səciyyələndirən biri-birilə qarşılıqlı şəkildə əlaqəli olan cədvəllərdən, göstəricilər sistemindən olan xüsusi balans növüdür.***

Makroiqtisadiyyatda tətbiq olunan göstəricilər sistemi üç əsas qrupa bölünür:

- ***Axınlar –*** istehlak xərcləri (C), yığım (S), investisiyalar (İ), dövlət xərcləri(G), vergilər (T), ixrac (Ex), idxal (İm), və s.
- ***Ehtiyatla***r - kapital, dövlət borcu, milli sərvət və s.
- ***Iqtisadi vəziyyəti əks etdirən parametrlər*** – faiz dərəcələri (i), aktivlərin gəlirlilik dərəcələri ( r ), vergi dərəcələri ( v ), inflyasının səviyyəsi ( f ), işsizliyin səviyyəsi və s .

İqtisadi vəziyyəti xarakterizə edən göstəricilərdəki dəyişikliklər digər makroiqtisadi parametrlərə təsir göstərir. Məsələn faiz dərəcəsinin artırılması dövriyyədə olan pul kütləsini artırır, pul kütləsinin artması iqtisadi aktivliyi artırır, lakin eyni zamanda eyni zamnda inflyasiya təhlekəsi yaradır. Vergi dərəcələrinin artması iqtisadi aktivliyi azaldır və s.

| |
|---|
| ***İqtisadi göstəricilər – iqtisadi şəraiti əks etdirən meyarlardan birdir. Onların vasitəsi ilə iqtisadiyyatın vəziyyəti və inkişaf*** **istiqamətləri müəyyənləşdirilir** |

Makroiqtisadi göstəricilər bir-birilə qarşılıqlı şəkildə başlıdır. Sosial - iqtisadi proseslərin statistik təhlilində MHS-in rolu əvəzedilməzdir. Onun vasitəsi ilə ölkədə iqtisadi vəsiyyəti təhlil etmək və onun gələcək inkişaf proqnozlarını hazırlamaq mümkündür.

Bu konsepsiyanm praktik tətbiqi milli hesablar sistemi, yəni iqtisadi münasibətlərin iştirakçıları arasında mübadilə əməliyyatlarının məcmu-sunun müvazinətli vəziyyətini ifadə edən xüsusi balanslar kompleksinə söykənən konkret statistik sistemdir.

Milli hesablar iqtisadiyyat üçün mühasibat uçotunun müəssisə üçün yerinə yetirdiyi funksiyanı yerinə yetirir. Milli hesab sisteminə daxil olan müxtəlif göstəricilər konkret vaxt üçün istehsal həcmini ölçməyə və iqti-sadiyyatın fəaliyyətini bilavasitə müəyyənləşdirən amilləri aşkarlamağa imkan verir

MHS milli iqtisadiyyatın vəziyyəti və fəaliyyətinin nəticələri haqqında informasiyanın toplanılması və işlənilməsi sistemidir. Onun göstəriciləri bazar iqtisadiyyatının qurulu-şu, institutlar və fəaliyyət mexanizmlərini əks etdirir. MHS-nin istifadə olunması dövlətin səmərəli makroiqtisadi siyasət həyata keçirməsi, iqtisadi proqnozlaşdırma, milli gəlirin beynəlxalq müqayisəsinin aparılması üçün lazımdır.

Beləliklə, (MHS) — milli hesablar konsepsiyasmm nəzəri formallaşdırılması kimi çıxış edən və ölkənin iimumi milli məhsulu və milli gəlirinin istehsalı, bölgüsü və istifadə olunmasmı əks etdirən hesablar, cədvəllər və balans cədvəllərinin məntiqi ardıcıl və inteqrasiya olunmuş məcmusundan ibarət olan statistik sistemidir.

## 2. Makroiqtisadi Göstəricilər




Müasir statistika sistemində makroiqtisadi göstəricilər iki hissəyə bölünür

- iqtisadi göstəricilər;
- sosial göstəricilər.

Bizim mövzumuz iqtisadi göstəricilərlə bağlı olduğuna görə biz əsasən makroiqtisadi göstəricilərlə məşğul olacağıq . Beynəlxalq statistikada iki əsas makroiqtisadi östəricidən daha çox istifadə olunur:

- Ümumi daxili Məhsul (ÜDM);
- Ümumi Milli Məhsul (ÜMM).

**Ümumi daxili məhsul (ÜDM)** iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. O vahidlər tərəfindən son istehlak üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri ilə ölçülür.

***Ümumi daxili məhsul (ÜDM) iqtisadiyyatın inkişaf səviyyəsini göstərən əsas makroiqtisadi göstəricidir.***

***ÜDM il ərzində ölkə daxilində istehsal olunan bütün son mal və xidmətlərin və yalnız həmin ölkənin istehsal amillərinini istifadə etməklə bazar qiymətləri ilə dəyəridir.***

Tərifdən göründüyü kimi ÜDM-in istehsalında ölkə sərhədləri həlledici rol oynayır. Məsələn ABŞ-da yığılan Honda avtomobili ABŞ-ın ÜDM-inə aid edilir, lakin məsələn Meksikada yığılan çap maşını ABŞ-ın ÜDM-nə aid edilmir. Eyni zamanda ÜDM-

hesablanarkən bazar qiymətləri əsas götürülür. Çox vacib məqamlardan biri də aralıq istehlakın nəzərə alınmasında ibarətdir.

**Aralıq istehlak -** hesabat dövründə istehsal prosesində faktiki dəyişdirilən və ya tam istehlak edilən mal və xidmətlərin dəyəridir. Material xərcləri, qeyri-maddi xidmətlərə görə ödənən pul, əsasən gediş haqqını və mehmanxana xidmətlərini ödəməyə sərf edilən ezamiyyət xərcləri də bura daxildir. Əsas kapitalın istehlakı aralıq istehlakın tərkibinə daxil edilmir.

Bazar dəyəri. Hansı halda çox olar? Şəkil1-də yoxsa Şəkil2-də..?



Şək. 1.




Şək. 2.

ÜDM bazar qiymətləri ilə hesablandığına görə dəyəri yüksək olan məhsullar onun dəyərinə daha çox təsir göstərir. Tərifdən göründüyü kimi ÜDM-də yalnız son məhsulun dəyəri əsas gütürülür. Aralık istehlakın dəyəri soin məhsuldan çıxılır.

**Maddi istehsal xərcləri -** istehsal prosesində tam istifadə edilən əmək əşyalarından və aşındıqca dəyəri məhsulun dəyərinə keçən əmək vasitələrindən ibarət olan maddi nemətlərin dəyərini ifadə edir. Maddi istehsal xərclərinə aşağıdakılar aid edilir:

- material xidmətlərinin (kənar müəssisə və təşkilatlar tərəfindən yerinə yetirilən istehsal xarakterli işlərin, rabitə xidmətlərinin və s.) ödənilməsi; .

***ÜDM-in tərkib hissəsi deyildir:***

- ***Evdə istehsal və istehlak olunan və heç zaman bazara daxil olmayan əmtəə və xidmətlərin dəyəri ÜDM-ə daxil deyil.***
- ***Qeyri-qanuni yollarla istehsal edilmiş və satılmış əmtəələr, məsələn narkotiklərin dəyəri ÜDM-ə daxil deyil.***

### 3. ÜDM –un iqtisadi mahiyyəti

Ümumi daxili məhsul **konkret zaman vahidi**, adətən bir il, yaxud rüb ərzində istehsal olunan məhsulun kəmiyyətini əks etdirir.

Dövlət ÜDM-un rüb üzrə göstəricisini elan etdikdə adətən onun ölçüsü «illik hesablanma» ilə verilir. Bu o deməkdir ki, təqdim olunan rəqəmlər 3 ay ərzində bütün xərclərin və gəlirlərin məbləğinin 4 mislini əks etdirir. Belə yanaşma rüblük və illik ÜDM-un rəqəmlərinin daha əyani tutuşdurulması üçün istifadə olunur. Bundan əlavə bir rüb üzrə ÜDM-un səviyyəsi *mövsümü düzəlişi* nəzərə almaqla təqdim olunur. Mövsümi düzəliş il ərzində əmtəə və xidmətlərin istehsalı və istehlakındakı qeyri bərabərlikləri məsələn, yeni il qabağı satışlar zamanı əhalinin xərcləri ən yüksək həddə çatdığı zaman, aradan qaldırmağa imkan verir. İqtisadçılar və siyasətçilər üçün ölkə ərazisində vəziyyət barədə obyektiv informasiyaya malik olmaq çox vacibdir, buna görə də rəsmi dərc olunan ÜDM-un qiymətinə həmişə mövsümü düzəliş də daxil olunur. Bu şərtə müvafiq olaraq, bu il istehsal olunmayan bütün mallar ÜDM hesablanarkən nəzərə alınmır, belə ki, müvafiq ilin dəyərində artıq nəzərə alınmışdır.

ÜDM konkret **dövlətin sərhədləri daxilində** istehsal olunan məhsulun dəyərini hesablayır. Əgər Azərbaycan vətəndaşı müvəqqəti ABŞ-da işləyirsə, bu zaman onun əməyinin nəticəsi Azərbaycanın ÜDM-unun bir hissəsi olur. Amerikalı Haitidə fabrik sahibi olursa, bu fabrikin məhsulu ABŞ-ın deyil, həmin ölkənin ÜDM-na daxil olur. Beləliklə, dövlətin ÜDM-una istehsalçının vətəndaşlığından asılı olmayaraq həmin dövlətin ərazisində istehsal olunan bütün əmtəə və xidmətlər daxildir.

ÜDM-a bütün yenidən **istehsal olunan** əmtəə və xidmətlər daxil edilir və nəzərdən keçirilən dövr ərzində satılmış, lakin keçmişdə istehsal olunmuş əmtəələr çıxarılır. Məsələn, əgər *General Motors* korporasiyası yeni avtomobil istehsal edir və satırsa onun qiyməti ÜDM-a daxil edilir. Lakin əgər bir nəfər öz köhnə avtomobilini başqasına satırsa sövdələşmənin dəyəri ÜDM-a daxil edilmir.

Bununla ümumi daxili məhsul göstəricisi – ÜDM ( Gross Domestic Product — GDP) ümumi milli məhsuldan – ÜMM-dən ( Gross National Product — GNP) fərqlənir. ÜDM ölkə ərazisində istehsal olunan bütün mal və xidmətlərin məcmu bazar dəyərini əks etdirir. ÜDM müəyyən edilərkən meyar kimi ərazi faktoru çıxış edir. ÜMM isə ölkə vətəndaşlarının onlara məxsus istehsal faktorlarının köməyi ilə istehsal etdikləri bütün mal və xidmətlərin məcmu bazar dəyəridir. ÜMM müəyyən edilərkən meyar kimi milli mənsubiyyət faktoru çıxış edir. İnkişaf etmiş ölkələrin çoxunda ÜDM-in ÜMM-dən fərqi 1%-i üstələmir.

ÜDM kəmiyyətcə ÜMM-dən xaricdən xalis faktor gəlirinin ölçüsü ilə fərqlənir ki, bu da bu ölkənin vətəndaşlarının başqa ölkələrdə milli faktorlardan (iqtisadi resurslardan) istifadə etməklə aldıqları gəlirlə xarici vətəndaşların özlərinə məxsus faktorlardan (xarici) istifadə etməklə bu ölkədə qazandıqları gəlirin fərqinə bərabərdir:

**Diaqram 1. Azərbaycanda 2017-ci ildə ÜDM-in strukturu**




ÜDM – yalnız pul ilə ilə ifadə olunur. ÜDM makroiqtisadi göstərici olmaqla iqtisadiyyatın bütün sekrtorlarında yaranan əlavə əyərin cəmini göstərir. Lakin müxtəlif sektorlar ÜDM-də fərqli proporsiyalar yaradır. Diaqram 1-dən göründüyü kimi ÜDM-in ən yüksək payı sənayenin üzərinə düşür. ÜDM-də sənayenin payı 40,1% ilduğu halda , informasiya və rabitə sektoru üzrə bu göstərici 1,6% təşkil edir. ÜDM-a mümkün qədər bütün qanuni istehsal olunan əmtəə və xidmətlər aid edilir. Başqa sözlə ÜDM-ə müşahidə olunmayan gölgə iqtisadiyyati daxil edilmir. Lakin bir çox ölkələrdə kölgə itisadiyyatının miqyası qiymətləndirilərək ÜDM-ə əlavə olunur.

ÜDM mənzil kirayəsinin bazar dəyərini də nəzərə alır. İcarəyə verilən yerlər üçün o, çox asanlıqla ya icarədarların xərclərinin məbləği kimi, ya da icarəyə verənlərin gəlirlərinin məbləği kimi müəyyən edilir. Lakin insanların çoxu öz şəxsi evlərində yaşayırlar və deməli, heç bir icarə xərcləri ödəmirlər. Dövlət vətəndaşların bu qrupunun ÜDM-a əlavəsini nəzərə alaraq, onun tərkibinə bu vətəndaşların «icarə

ödəmələrinin» bazar qiymətlərinə uyğun ölçülmüş xəyali məbləğini daxil edir. Əslində ÜDM-a həm mənzil sahiblərinin «icarədar» kimi ehtimal edilən xərcləri, həm də icarəyə verənlər kimi onların gəlirlərinin xəyali məbləği də daxildir.

**4. Ümumi daxili məhsul və onun hesablanması**

Milli Hesablar sisteminin əsas göstəricisi ümumi daxi li məhsuldur (ÜDM). Bir sıra xarici ölkənin statistikasında ümumi milli məhsul (ÜMM) göstəricisindən istifadə olımur. ÜDM eynilə ÜMM kimi milli iqtisadiyyatın fəaliyyətinin nəticələrinin ümumiləşdirilmiş göstəriciləridir.

Ümumi daxili məhsul (ÜDM) — ümumiləşdirici iqtisadi göstərici olub ölkə daxilində yaradılmış son məhsul və xidmətləriın bazar qiymətləri ilə dəyəridir.

Ümumi milli məhsul (ÜMM) - həmin ölkəyə məxsus istehhsal amillərinin köməkliyi ilə bir il ərzində istehsal olunmuş və son nəticədə istehlak üçün nəzərdə tutulmuş mal və xidmətlərin bazar dəyəridir.

Fərq ondadır ki, ÜDM-i hesablanmasmda ayrı-ayrı rmaların xarici şöbə və filialları nəzərə almmadan yalnız əmin ölkə hüdudlarında istehsal olunmuş məhsul nəzərə Lmır, ÜMM məhsul isə milli kapitalm ölkə hüdudlarından kənarda yerləşən milli kapitalın istehsal etdiyi məhsuı da nəzərə alır**.** Ölkələrin çoxu iiçün ÜDM ilə ÜMM östəriciləri arasmda fərq böyük deyil və ±1% hüdudunda ayişir.

ÜDM-dən xarici kapitalın köməkliyi ilə həmin ölkənin -azisində yaradılmış dəyərlərin məbləğini çıxsaq və həmin kə vətəndaşlarına məxsus resurslardan istifadə etməklə ıricdə yaradılmış dəyərlər məbləğini əlavə etsək ÜMM-i arıq.

Tamamilə bağlı iqtisadiyyatda ÜMM həmişə ÜDM-ə bərabərdir**.** Açıq iqtisadiyyatda onlar arasında fərq xarici rmaların (filiallar, şöbələr, müştərək müəssisələr, xarici pilərdən istifadə və s.) ölkə ərazisində inkişafı ilə müvafiq araq milli resursların müxtəlif formalarda xaricdə istehsal aliyyətində iştirakı, xarici borcların səviyyələri arasında-fərq kimi meydana gəlir. Xaricdə istifadə olunan istehsal fiilləri sahiblərinin gəlirləri milli iqtisadiyyatda istifadə nnan xarici kapitalın sahiblərinin gəlirlərindən artıq ol-ıqda ÜMM ÜDM-dən çox olacaq.

ÜMM məhsul kimi ÜDM-i də müxtəlif metodlarla: rclər vasitəsilə, gəlirlər vasitəsilə və istehsal vasitəsilə qiymətləndirmək olar**.** Müxtəlif metodlarla hesablamalar ticəsində alınmış məbləğlər eyni olmalıdır. Bu onunla əla-dardır ki, bazar təsərrüfatında bir təsərrüfatçılıq subyek-ün xərcləri eyni zamanda digərləri üçün gəlirdir. ÜMM timsalında bu metodları nəzərdən keçirək. **Xərclər vasitəsilə qiymətləndirilmiş** ÜMM ayrı-ayrı

adamlar, müəssisələr və dövlət tərəfindən alınmış əmtəə və xidmətlərdən ibarətdir. Bura əsas f ondlara investisiyalar və realizə olunmamış məhsulun qalıqları da daxildir. Əslində, bu cəmiyyətdə istehlak olımmuş bütün məhsul axınlarının pulla ümumi dəyəridir:

**ÜMM = C+G+N +NX**

burada C - istehlak;

I - investisiyalar;

G – dövlət xərcləridir;

NX – xalis ixrac

Istehlaka (C) bütün cari əmtəə və xidmətlərin istehlakı daxildir: Investisiyalar (I) - müəssisələrin bina, avadanlıq, xam-mal, enerji və s. alışına xərclərinin məbləği, həmçinin ayrı-ayrı vətəndaşların mənzil alışına xərcləridir. ÜMM-də ümumi investisiyalar əks olunur, amma onlardan amortizasiya xərclərini çıxsaq, onlar xalis investisiyalara çevrilərlər. Xalis investisiyalar ilin əvvəli və sonu üçün kapital qoyuluşunun olmasını göstərir.

Dövlətin əmtəə və xidmətlər alışına (G) daxildir. Lakin dövlət borcu üzrə faizlər və transfert ödənişləri ÜMM-ə daxil edilmirlər.

Beləliklə, istehlak, investisiyalar və dövlət alışları ölkə daxilində əmtəə və xidmətlər xərcləri səciyyələndirirlər. Lakin açıq iqtisadiyyatda istehsal olunmuş əmtəənin bir qismi ölkə hüdudlarından kənarda satılır, çünki əmtəələr ixrac olunurlar. Eyni zamanda ölkə daxilində pulun bir qismi başqa ölkələrdən idxal olımmuş əmtəənin alışına xərclənir. İxrac və idxal arasındakı fərq xalis ixracı (NX) təşkil edir ki, onun da məbləği ÜMM-ə daxil edilir.

**ÜMM-in qiymətləndirilməsinin ikinci üsulu gəlirlər vasitəsilədir.** Gəlir hissəsi əhalinin əmək fəaliyyətiıjdən gə-lən gəlirindən (əmək haqqı) və mülkiyyət gəlirlərindən (mən-fəət, faiz, renta) ibarətdir.

**ÜMM = W+R+F+M,**

Burada W - əmək haqqı;

R – renta;

F – faiz ödənişləri;

M – mənfəətdir.

Lakin bu halda nəzərə almmalıdır ki, ÜMM-in tərkibində elə hissələr var ki, onlar gəlir forması almırlar: bu, amortizasiya və dolayı vergilərdir. Sonuncuya satışdan ümumi vergini, aksizləri, mülkiyyət vergilərini, lisenziya ödənişlə-rini və gömrük haqlarını aid edirlər. ÜDM-in qiymətləndirilməsinin üçüncü üsulu əlavə dəyər üsuludur.

Bu üsul vasitəsilə hər bir istehsal həlqəsində yaranan əlavə dəyər hesablanır. Əlavə dəyər məhsulun satışından əldə olunan pul ilə istehsalın maddi amillərinə çəkilən xərclər arasındakı fərq kimi müəyyənləşdirilir. Əslində, bu halda bütün yeni yaradılmış dəyər müəyyənləşdirilir.

Hesablanan dövrdə iqtisadi subyektlərin həyata keçir-dikləri sövdələrin heç də hamısı ÜDM və ÜMM göstəriciləri-nə daxil edilmir. Birincisi, bu, maliyyə alətləri ilə sövdə-lərdir: qiymətli kağızların – səhmlər, istiqrazlar və s. – alışı və satışının; maliyyə sövdələrinin cari real istehsaldakı dəyişikliklərə bilavasitə aidiyyatı yoxdur. Ikincisi, istehlakda olunmuş əşyaların və nemətlərin alışı və satışı, çünki onların dəyərliliyi əvvəllər nəzərə almmışdı. Üçüncüsü, xüsusi transfertlər (məsələn, hədiyyələr): bu halda bu, fərdi iqtisa-di subyektlər arasında pul vəsaitlərinin təkrar bölgüsüdür. Dördüncüsü, dövlət transfertləri. Ümumi milli məhsuldan ümumi buraxılışı fərqləndir-mək lazımdır.

**Ümumi buraxılış** müəyyən zaman kəsiyi ərzində iqtisadiyyatda istehsal olunmuş bütün əmtəə və xidmətlərin dəyərindən ibarətdir. Ona iqtisadiyyatda istehsal olunmuş əmtəələrin tamamilə hamısı, o cümlədən digər əmtəə və xid-mətlərin istehsalı üçün nəzərdə tutulanlar da daxildir. So nuncular son istehlakdan fərqli olaraq, aralıq istehlakı təş-kil edirlər. **Ümumi buraxılışdan fərqli olaraq ÜDM aralıq istehlakdan təmizlənmişdir.**

Tam məşğulluq şəraitində təmin edilən ümumi buraxılış səviyyəsi **təbii buraxılış səviyyəsi** adlanır.

MM tərkibində (ÜDM-də olduğu kimi) bu dövrdə deyil, əvvəlki dövrdə yaradılmış hissə var: o, istehsal vasitələ-rindən yaradılmış əmtəə və xidmətlərə keçirilmiş dəyərdə öz əksini tapır. Bu, **amortizasiyadır.** Onu ÜMM-dən çıxsaq, **xalis milli məhsul (XMM) alarıq.**

**Praktiki məsələlər.**

**Xərclər üsulu:**

| | |
|---|---|
| İstehlak xərcləri | 4923,4 |
| İnvestisiyalar | 1067,5 |
| Dövlət xərcləri | 1358,5 |
| Xalis ixrac | -101,7 |
| ÜDM | 7247,7 |

**Gəlirlər üsulu:**

| | |
|---|---|
| Maaş və əmək haqqı | 4232,4 |
| Mənfəət | 1091,1 |
| Renta | 154,2 |
| Vergi | 644,8 |
| Faiz | 399,8 |
| Qiymətin salınması | 721,9 |
| ÜDM | 7247,7 |

***ÜDM –in deflyatoru***

İnflyasiya ÜMM-in hesablanmasını çətinləşdirir. Cünki qiymətlərin dəyişməsi birbaşa olaraq ÜDM-ə təsir göstərir. Bu fərqi aradan qaldırmaq üçün xüsusi göstərici olan deflyatordan istifadə edilir. Deflyator indeksinin vahiddən böyük və kiçik olması ilə bağlı qymətlər səviyyəsi barədə fikir yürüdülür. Lakin praktikada inflyasiya səviyyəsini hesablamaq üçün çox vaxt deflyatordan yəx istehlak səbətinə daxil olan malların qiymət indeksindən istifadə olunur.

ÜDM-in deflyatoru ölkədə istehsal olunmuş məhsulların hamısının qiymətlərini nəzərə alır, amma idxal olunmuş məhsulların qiymətlərini nəzərə almır. O, ÜDM-in tərkibinin dəyişməsinə müvafiq olaraq əmtəə və xidmətlər dəstində dəyişikliklərin olmasına yer qoyur. Makroiqtisadi nəzəriyyə real ÜMM-in hesablanması üçün müxtəlif qiymətlər indeksindən istifadə edir.

Qiymət indeksi - cari ilin qiymətlərinin baza ili qiymətlərinə nisbətinin 100% hasilidir.

Aşağıdakı əsas qiymət indeksləri növlərini fərqləndirirlər:

- istehlak qiymətlərinin indeksi;
- topdansatış qiymətlərin indeksi;
- ixrac və idxal qiymətlərinin indeksi.

Daha çox qiymət səviyyəsi göstəricisi - *istehlak qiymətləri indeksi* - tətbiq olunur ki, bu da cari ildə istehlak zənbili qiymətinin onun baza ilindəki qiymətinə nisbətidir. Onu hesablayanda son əmtəə və xidmətlərin hamısı deyil, yalnız adi ev təsərrüfatının aldığı istehlak zənbilini təşkil edənlər nəzərə alınır.

*ÜDM deflyatoru* nominal ÜDM-nin real ÜDM-yə olan nisbətinin 100-ə hasili kimi hesablanan və qiymət səviyyəsini ifadə edən göstəricidir. ÜDM deflyatoru istehsal olunmuş əmtəə və xidmətlərin miqdarını deyil, onların qiymət səviyyəsini özündə əks etdirir.

**Nəzarət sualları:**

1.MHS-in tətbiq edilməsinin əsas mahiyyəti nədən ibarətdir?

2.MHS-in əsas göstəriciləri hansılardır?

3.ÜDM –in iqtisadi mahiyyədə nədir?

4.ÜDM-in bir makroiqtisadi göstərici kimi çatışmayan cəhətini izah edin

5. ÜDM ilə ÜMM arasındakı fərqlər nədən irəli gəlir?

6. ÜDM-in hesablanmasının hansı üsulları mövcuddur?

7. Aralıq istehlak nədir?

8, Hansı səbəbə görə aralıq istehlak ÜDM-in hesablanmsı zamanı nəzərə alınmır?

9. ÜDM-dəki artım hansı amillər hesabına baş verir?

10. Real ÜDM-lə nominal ÜDM arasındakı fərq hansı göstərici vasitəsi ilə hesablanır.?

**7. Ədəbiyyat**


1.İqtisadi nəzəriyyə . Makroiqtisadiyyat – 1,2 Dərs vəsaiti,2009

3. Rudiqer Dornbuş, Stenli Fişer, Ricard Stars Makroiqtisadiyyat . Bakı,2015

4. R.Ş.Məmmədov. “Milli Hesablar Sistemi., Dərs vəsaiti, Bakı 2007

5. Курс экономической теории. Учебник. Коллектив авторов. 2005

5. Azərbaycanın Milli Hesbaları. Statistik Məcmuə. Bakı 2015.

6. John Sloman and Mark Sutcliffe . Economics / Student workbook

7. John Sloman . Essentials of Economics. Prentice Hall.

8. https://www.khanacademy.org/economics-finance-domain/macroeconomics

9. https://economictimes.indiatimes.com/definition/macroeconomics

10. https://www.edx.org/course/introduction-economics-macroeconomics-snux-snu044-088-2x-0

11. https://learn.saylor.org/course/econ102/


.